# Tovuz döyüşləri:
# qəhrəmanlıq salnaməsinin dördüncü səhifəsi



### Buna qədər isə 1994-cü ildə Horadiz, 2016-cı ildə şanlı Aprel döyüşləri, 2018-ci ildə Naxçıvanda uğurlu Günnüt əməliyyatı olmuşdu

*Tarixinə və taleyinə yadellilər, işğalçılar, daşnaklar, separatçılar tərəfindən ağır zərbələr vurulan xalqımız heç zaman inamını, dözümünü, səbrini, davranışını, insanlığını, mərhəmətini itirməyib, qisasçılıqdan, etnik nifrətdən, kin-küdurətdən həmişə uzaq olub. Bu keyfiyyətlər xalqın böyüklüyünü göstərir, onun ideallarından, Vətən, yurd məhəbbətindən xəbər verir. Fərq qoymadan hər kəsə, xristiana, yəhudiyə, digər dinlərin nümayəndələrinə qucaq açıb, ən əziz tikəsini onlarla bölüşüb.*

Vaxtilə torpaqlarımıza köçürülən şovinist ermənilər bütün bu insani keyfiyyətlərdən məhrumdurlar, azərbaycanlılara qarşı terroru, təxribatı, işğalı, soyqırımı iki əsrdən çox idi ki, davam etdirirdilər. Azərbaycanın ən səfalı, gözəl guşələrində məskunlaşan erməni daşnaklar çirkin niyyətlərini çox gizlədə bilmədilər. Torpaq iddiasına başladılar və tələb edirdilər ki, Qarabağ, Şərqi Zəngəzur erməni torpaqlarıdır. Hətta Sovetlər Birliyi dönəmində erməni şovinistlər yüksək səviyyələrdə keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini irəli sürürdü. Dayanmadan xalqımıza və tariximizə şər, böhtan ataraq, azərbaycanlıları günahlandıraraq "miatsum" qışqırırdılar. Azğınlığın və həyasızlığın həddi-hüdudu bilinmirdi. Qarabağ və Şərqi Zəngəzuru havadarlarının köməyi ilə işğal edən düşmən 30 ilə yaxın həmin torpaqların sərvətini və dinc azərbaycanlıların malmülkünü talan etdi. Keçmiş təmas xəttində atəşkəsin elan olunmasına baxmayaraq, Ermənistan və separatçılar kəndləri, şəhərləri atəşə tutur, qadınları, uşaqları qətlə yetirirdilər. Bütün bu hərbi cinayətlər isə münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun gözləri qarşısında baş versə də, onlar susur, işğalçıların müdafiəsində dayanır, status-kvonu saxlamağa cəhd edirdilər. Azərbaycan tərəfinə təzyiq göstərilir, işğalla barışmaq təklif irəli sürülürdü. Azərbaycan təklənmişdi, buna baxmayaraq, bütün bu hədyan iddialara cavab verilirdi. Eyni zamanda işğal və məcburi köçkünlük probleminə və ağrılarına baxmayaraq, Azərbaycan güclənirdi. Bu barədə Prezident İlham Əliyev deyib: "Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm, Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil".

## Qürur və heysiyyət hissləri

Ən yaxın tariximizdə baş vermiş hadisələrin qısa xronologiyasına nəzər yetirək. İllər ötüb keçir, danışıqlar nəticəsiz qalır, Ermənistanda hakimiyyət dəyişikliyi baş verir, fasilələr yaranır və bir sözlə, Ermənistanın keçmiş prezidentləri, əlləri azərbaycanlı qanına bulaşmış qatillər Robert Köçəryan, Serj Sarkisyan işğalı dondurmağa çalışırdılar. Nəhayət, xalq üsyanı nəticəsində "Haykakan Jamanak" qəzetinin baş redaktoru Nikol Paşinyan hakimiyyətə gəldi. Bundan sonra Ermənistan-Azərbaycan münasibətlərində müəyyən pozitivlik yaransa da, çox çəkmədi. Ermənistan müxalifətinin və yaxud hansısa güclərin təzyiqi ilə bir müddətdən sonra Paşinyanın Azərbaycana qarşı ritorikası dəyişməyə başladı.

2019-cu il martın 29-da Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşdən bir neçə saat sonra düşmən ölkənin müdafiə naziri David Tonoyan Nyu-Yorkda yerli erməni icması ilə görüşündə Qarabağ münaqişəsinin nizamlanmasında "sülh müqabilində ərazilər" düsturunun "yeni müharibə - yeni ərazilər" ilə əvəz olunduğunu bildirərək dedi: "Sülh müqabilində ərazilərin geri verilməsi artıq keçmişdə qalıb. Erməni tərəfi başa düşüb ki, "təhlükəsizlik zolağı" ərazilərinin Madrid prinsipləri əsasında Azərbaycana verilməsi ölkənin müdafiə potensialını sarsıdacaq. Ermənistan silahlı qüvvələrinin strategiyası bundan sonra hücum xarakterli olacaq. Biz daimi müdafiə strategiyasından çıxacağıq. Biz hərbi əməliyyatları düşmənin ərazisinə keçirə bilən bölmələrin sayını artıracağıq". 2019-cu ilin may ayında isə Şuşanın işğal ildönümündə iştirak edən Nikol Paşinyanın rəqsi xalqımızın heysiyyətinə toxundu. Həmin il avqustun 5-də Xankəndində keçirilən ümumerməni oyunları zamanı Paşinyan Dağlıq Qarabağı Ermənistan ərazisi adlandırdı və bu həyasız iddia gərginliyi daha da artırdı. Ermənistan baş naziri ATƏT-in müəyyən etdiyi danışıqlar formatını dəyişdirərək "DQR"in sülh danışıqlarına müstəqil tərəf kimi daxil edilməsini təkid etməyə başladı. Rusiyanın xarici işlər naziri Sergey Lavrov videokonfransda çıxışı zamanı "müəyyən edilmiş danışıqlar formatını" dəstəklədiyini bildirdi. ATƏT-in digər həmsədr dövlətləri olan Fransa və ABŞ da buna bənzər açıqlama verdi. 2020-ci il martın 31-də keçmiş "Dağlıq Qarabağ respublikası"nda keçirilən "prezident seçkilərindən" sonra Arayik Harutyunyanın andiçmə mərasimi Şuşada keçirildi. Mərasimdə qondarma "DQR rəhbərliyi "parlamentin" 2022-ci ildə Şuşaya köçürüləcəyini də açıqladı. Şuşanın azərbaycanlılar üçün daşıdığı mənəvi əhəmiyyəti nəzərə almadan atılan bu addım Azərbaycanda çox ciddi etiraz və hiddət yaratdı. Necə deyərlər, artıq səbr kasası daşırdı. Buna baxmayaraq, iyulun 2-də Ermənistandakı iclas zamanı general-leytenant Vaqarsak Harutyunyan Mingəçevir su anbarının vurulması haqqında danışdı. Bu sözlərdən on gün sonra Tovuz döyüşləri başlandı.

## Erməni təxribatı, hücum taktikası

İyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində əsgərlərimizin döyüş mövqelərini və mülki əhalini atəşə tutdu. Ordumuzun bölmələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında ordu bölmələrimizin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər isə yaralandı.

Tovuz döyüşlərində Azərbaycan tərəfində döyüş mövqeyində əsgərlərlə bərabər general və digər yüksək rütbəli hərbçilər çiyin-çiyinə qəhrəmanlıqla savaşdılar. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlər zamanı Ermənistan ordusunun şəxsi heyəti çoxsaylı itki verib. Tovuz istiqamətində iyulun 13-nə keçən gecə artilleriya, minaatan və tankların tətbiqi ilə gedən döyüşlərdə ordu bölmələrimizin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissə ərazisindəki avtomobil texnikaları və canlı qüvvəsi məhv edilib. Döyüş zamanı ağır məğlubiyyətə uğrayan Ermənistan silahlı qüvvələrinin artilleriyası Tovuz rayonunun Dondar Quşçu və Ağdam kəndlərini atəşə tutub. Buna cavab olaraq ordumuzun bölmələri Ermənistanın sərhəd kəndlərini atəşə tutaraq düşməni cəzalandırıb. Nerkin Karmirağbyur, Aygepar və Çinarlı yaşayış məntəqələri ağır zərbə alıb. Kənd sakinləri "Azadlıq" radiosunun erməni müxbirinə deyiblər ki, hər zaman buralarda bir-iki atəş olurdu. Hazırda əsl müharibə gedir. Ermənistanın hazırda həbsdə olan müdafiə naziri Davud Tonoyan ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşike bildirib ki, erməni bölmələri yeni ərazilər tutacaqlar. Dərhal erməni mətbuatında Qaraqaya yüksəkliyinin ermənilər tərəfindən ələ keçirildiyi haqqında məlumatlar yayıldı. Lakin bu xəbəri Azərbaycan Müdafiə Nazirliyi təkzib etdi. Buna baxmayaraq, radikal millətçi, "Sasna Tsrer" partiyasının qurucusu Jirayr Səfilyan "Azadlıq" radiosuna verdiyi müsahibədə erməni generallarına müraciət edərək Başkənddən Gürcüstana qədər sərhəd ərazilərin "azad edilmə" zamanının gəldiyini bildirdi. Yaxşı deyiblər ki, "ac toyuq yuxusunda darı görər". Azərbaycan hərbi komandanlığı iyulun 13-də ilk dəfə pilotsuz uçuş aparatlarından istifadəyə icazə verdi və düşmənin bir neçə mövqeyi 20-dən çox erməni hərbçisi məhv edildi. Döyüşlərin şiddəti getdikcə artırdı. İyulun 14-də səhər saatlarında Ermənistan bölmələri 1121,5 yüksəkliyinin şimalında yerləşən döyüş postunu vurdu. Bu döyüş postunu hərbçilərimiz "Mübariz postu" adlandırırdılar. Düşmən tərəfinin atdığı 3 ədəd artilleriya mərmisi hərbiçilərimizin olduğu mövqeyə düşdü. 3-cü Ordu korpusunun komandir müavini general-mayor Polad Həşimov, artilleriya rəisi polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov və gizir Yaşar Babayev qəhrəmanlıqla şəhid oldu. Mülki əhali arasında isə Ağdam kənd sakini Əziz Əzizov qətlə yetirildi. Günün ikinci yarısında ordumuzun bölmələri Ermənistan ərazisindəki hərbi obyektlərə güclü zərbələr endirdi və onlarla düşmən zabiti, əsgəri məhv edildi. İyulun 16-da axşama yaxın döyüşlərin intensivliyi azaldı və tərəflər atəşkəslə bağlı müvəqqəti razılığa gəldilər.

Qısamüddətli döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almağa qadirdi. Tovuz döyüşlərində 100-dən çox hərbçisi və onlarla hərbi obyektləri məhv edilən Ermənistan silahlı bölmələrinin şəxsi heyəti hətta səngərləri qoyub qaçdı. Döyüşlər zamanı bir neçə gün ərzində yüzlərlə yaralı və ölü daşıyan ermənilər itkilərdən dəhşətə gəlmişdilər. Təcavüzkar Ermənistan cəbhədəki ağır uğursuzluğunu xalqdan gizlədərək, hərbi rəhbərliyin doğru olmayan məlumatlarını yayırdı. 4 günlük döyüşlərində ordumuzun əsgər və yüksəkrütbəli zabitləri qəhrəmanlıq və igidlik nümunələri göstərdilər və ermənilərin işğalçılarının törətdikləri təxribatların qarşısını qətiyyətlə aldılar. Xalq bu döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan mərd, qəhrəman oğullarını general-mayor Polad Həşimovu, polkovnik İlqar Mirzəyevi, mayor Namiq Əhmədovu, mayor Anar Novruzovu, baş leytenant Rəşad Mahmudovu, gizir İlqar Zeynalovu, gizir Yaşar Babayevi, baş çavuş Vüqar Sadıqovu, çavuş Elçin Mustafazadəni, çavuş Nazim İsmayılovu, baş əsgər Elşad Məmmədovu və əsgər Xəyyam Daşdəmirovu böyük izdihamla son mənzilə yola saldı. Onların və bütün şəhidlərimizin qanları yerdə qalmadı, qisasları döyüş meydanında alındı. 44 günlük Vətən müharibəsində düşmən ölkənin ordusu darmadağın edildi, hərbi texnikaları sıradan çıxarıldı, bir çoxu isə Bakıda "Qənimətlər parkı"nda namyiş etdirilir. Separaçıların rəhbərləri isə qolları qandallanaraq istintaq orqanlarına təhvil verildi və indi onların Bakı şəhərində məhkəmələri davam edir.

## Düşmənlərin planı alt-üst edildi

Ermənistanın Tovuz istiqamətində hücum taktikası Azərbaycanın enerji kəmərlərinin keçdiyi əraziləri işğal etmək məqsədi daşıyırdı. Bir çox müşahidəçilər də Tovuz döyüşlərini Avropanın enerji təhlükəsizliyinə təhdid hesab etdilər. Bu, eyni zaman da, Azərbaycan hökumətinin rəsmi versiyası idi. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev "Euractiv" saytına verdiyi müsahibədə bu barədə deyib: "Ermənistanın 12-16 iyul tarixlərində Azərbaycana qarşı hərbi təxribat törətmək üçün Tovuzu seçməsi təsadüfi deyildi. Tovuz təmas xəttində deyil, Ermənistanla Azərbaycan arasında beynəlxalq sərhəddə yerləşir. Bakı-Tiflis-Supsa, BTC neft kəməri və çoxmilyonluq meqalayihədə mühüm zəncir olan Cənub Qaz Dəhlizi (CQD) bu ərazinin yaxınlığından keçir. Ermənistanın məqsədi mülki əhali ilə yanaşı, Azərbaycanın mühüm enerji infrastrukturunu, eləcə də qitənin enerji təhlükəsizliyi üçün strateji siyasi və iqtisadi əhəmiyyət kəsb edən neft və qaz kəmərlərini hədəfə almaq idi". Bundan başqa, Atlantik Şurasının Qlobal Enerji Mərkəzinin böyük elmi işçisi Brenda Şaffer də bu versiyanı dəstəklədi: "Tovuz toqquşması Ermənistan üçün 1967-ci ildə Misirin İsrail gəmilərinə Tiran boğazını bağlamasına bənzər bir səbəb yaratdı. Bu, yeni strateji reallıq idi. Ermənistan Azərbaycanın CQD-nin kommersiya əməliyyatlarını yenidən açmağı planlaşdırmasından həftələr əvvəl qəfil hücuma keçdi. 33 milyard dollarlıq təbii qaz layihəsi onilliklər ərzində Avropaya yeni təbii qaz həcmlərini gətirmək üçün nəzərdə tutulmuşdu. Bu, Azərbaycanın strateji mövqeyini yaxşılaşdırmaqla Azərbaycanı Avropanın əsas enerji təchizatçısına çevirməli idi. Ermənistanın niyyəti buna mane olmaq idi.

Azərbaycan indi bölgədə sülh və sabitliyin təminatçısı, həm də qalib ölkə kimi tanınır, söz sahibinə çevrilib, diplomatiya da uğurlarını get-gedə artırır. Bu vacib amil yalnız Azərbaycan Prezidenti İlham Əliyevin siyasi bacarığı, səmimi münasibəti, dostluğu, qətiyyətli mövqeyi, ən əsası isə dövətinə və xalqına sonsuz məhəbbəti ilə ərsəyə gətirilib. Prezident İlham Əliyev yenilməz sərkərdəlik bacarığı və dünya siyasətindəki mövqeyi sayəsində 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərə imza atdı, torpaqlarımızı işğaldan azad edən, xalqımızı daşnak bəlasından qurtaran, şərəfimizi və qürurumuzu bərpa edən xilaskar kimi adını tarixin səhifələrinə qızıl hərflərlə yazdı.

Bu gün güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu çox yüksəkdir. Ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və ən müasir hərbi texnikalarla təchiz olunub. Bütün bunlar Azərbaycan Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Düşmən üzərində qazanılan tarixi qələbənin təməli 1994-cü il Horadiz əməliyyatı ilə, sonra 2016-cı ilin dördgünlük Aprel döyüşləri, 2018-ci il Günnüt qələbəsi, 2020-ci il Tovuz döyüşlərindəki qəhrəmanlıq və şücaətlə qoyulub.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 12 iyul (№ 141).-